Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu
MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

RFM
RESPUBLİKA FƏNN MÜSABİQƏLƏRİ

# Biologiya

## 7-ci sinif

AD:

SOYAD:

MƏKTƏB:

SİNİF:

- İmtahan müddəti 120 dəqiqədir.
- 1-5-ci suallar 3 bal, 6-20-ci suallar 4 bal, 21-25-ci suallar 5 bal ilə dəyərləndirilir.
- Hər səhv cavab öz dəyərinin $\frac{1}{4}$-ni aparır.
- Qeydiyyat prosesindəki məlumatlarla şagirdə verilən kitabçada hər hansı uyğunsuzluq (fənn, bölmə, sinif) olacağı, eyni zamanda kitabçada texniki qüsur aşkarlandığı təqdirdə, imtahan prosesi yekunlaşmadan, zal nəzarətçisi vasitəsilə imtahan rəhbərinə məlumat verilməlidir.
- Məktəblilərarası fənn müsabiqələrinin nəticələrini portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.
- Nəticələr 06.05.2025-ci il tarixindən etibarən elan ediləcəkdir.

1. Tədqiqatçı azot molekullarının bitkinin inkişafına təsirini araşdırmaq üçün aşağıdakı təcrübəni hazırladı.




*Kifayət qədər azot miqdarı* | *Normadan az azot miqdarı* | *Normadan çox azot miqdarı*

Elmi araşdırmanın bu mərhələsindən sonra tədqiqatçı nə etməlidir?
A) Təxminlər irəli sürməlidir
B) Araşdırılacaq problemi müəyyən etməlidir
C) Fərziyyələr irəli sürməlidir
D) Nəticələr əsasında nəzəriyyə formalaşdırmalıdır

2. İnkişaf xüsusiyyətinə uyğun olaraq aşağıdakı meyvələr təsnif edilərkən hansı meyvə digərlərindən fərqlənir?
A) Moruq C) Çiyələk
B) Böyürtkən D) Ərik

3.
- *Küsdümotunun yarpaqlarına toxunduqda yarpaqcıqlar bükülür.*
- *Qağayı qanadlarının köməyi ilə uçur.*
- *Noxud bığcığını dayağa ilişdirərək yuxarı qalxır.*
- *İnsanlarda sidik cövhəri kimi lazımsız və zərərli maddələr böyrəklər vasitəsilə xaric edilir.*

Canlıların hansı əsas xüsusiyyətlərinə dair nümunə ***göstərilməmişdir***?
A) İfrazat C) Qıcıqlanma
B) Qidalanma D) Hərəkət

4. Aşağıdakılardan hansı bakteriya və sərçələrin hər ikisi üçün xarakterik ***deyil***?
A) Tənəfüs etməsi C) İfrazat orqanının olması
B) Hərəkət etməsi D) Çoxalması

5.
I. *ribosom* III. *hüceyrə divarı*
II. *mitoxondri* IV. *xloroplast*

Bu strukturlardan hansının olması bu canlının prokariot və ya eukariot hüceyrə quruluşuna malik olduğunu sübut edir?
A) III və IV C) II və IV
B) I və III D) I və II

6. Faktiki ölçüsü 0,015 mm olan qırmızı qan hüceyrəsininin böyüdülmüş ölçüsü 30 mm-dir. Böyütmə dərəcəsini hesablayın.
A) x500 B) x4500 C) x200 D) x2000

7. Aşağıdakı hansı hadisənin baş verməsi bitkinin çiçəkli bitki olub-olmadığını müəyyən etmək üçün istifadə edilə bilər?
A) Fotosintezin həyata keçirilməsi
B) Meyvənin əmələ gəlməsi
C) Dişi və erkək reproduktiv hüceyrələrinin formalaşması
D) Mayalanma nəticəsində ziqotun əmələ gəlməsi

8. Hüceyrə haqqında aşağıdakı mülahizələrdən hansı ***yanlışdır***?
A) Eukariot hüceyrələrdə ikimembranlı orqanellər var.
B) Hüceyrə canlı orqanizmin ən kiçik quruluş vahididir.
C) Yeni hüceyrə başqa hüceyrənin bölünməsi ilə əmələ gəlir.
D) İxtisaslaşmış hüceyrələr davamlı olaraq bölünür.

9. Aşağıdakı mülahizələrdən hansı doğrudur?
A) Meyvələrdə və toxumlarda müxtəlif uyğunlaşmalar toxumların yayılmasını təmin edir.
B) Şirəli və əlvan rəngli qida əhəmiyyətli meyvələrin toxumları heyvanların orqanizmində həzm olunur.
C) Atpıtrağı və kokos palması kimi bitkilərin toxumları dar coğrafi ərazilərdə yayılır.
D) Şanagüllə bitkisinin yetişmiş toxumları qısa müddət ərzində cücərməlidir.

Fənn müsabiqələri

10-11-ci sualları aşağıdakı şəkil əsasında cavablandırın.




10. Şəklə əsasən Y, Z və K-nı müvafiq olaraq müəyyən edin.

| | Y | Z | K |
|---|---|---|---|
| A) | ekosistem | təbii birlik | populyasiya |
| B) | populyasiya | populyasiya | ekosistem |
| C) | təbii birlik | ekosistem | populyasiya |
| D) | populyasiya | təbii birlik | ekosistem |

11. Hansı fikir doğrudur?
A) X – Müəyyən ərazidə birlikdə yaşayan eyni canlının bütün fərdlər qrupudur.
B) Z – eyni habitata uyğunlaşan müxtəlif orqanizmlərin populyasiyalarıdır.
C) Y – habitatda orqanizmlərin təbii birlikləri və ətraf mühitin cansız hissəsindən təşkil olunmuşdur.
D) K – müstəqil surətdə mövcud olan, bütün orqanları əlaqəli fəaliyyət göstərən canlı varlıqdır.

12. Hansı fikir doğru ***deyil***?
A) Habitat hər bir orqanizmin yaşaya biləcəyi yaşayış məskənidir.
B) Habitat orqanizmlərin çoxalması üçün yer, həmçinin sığınacaqdır.
C) Canlılar ekosistem boyunca bərabər paylanır.
D) Canlılar ekosistemdə həyat tərzlərinə uyğun habitatlarda yaşayırlar.

Fənn müsabiqələri

13-15-ci sualları aşağıdakı şəkil əsasında cavablandırın.



13. Müəyyən bir sahədə müşahidə olunan onurğalı və onurğasız heyvanlara aid növlərin (X) və fərdlərin (Y) sayını hesablayın.

| | Onurğasız heyvanlar | | Onurğalı heyvanlar | |
|---|---|---|---|---|
| | X | Y | X | Y |
| A) | 4 | 8 | 3 | 5 |
| B) | 8 | 4 | 5 | 3 |
| C) | 5 | 3 | 8 | 4 |
| D) | 3 | 5 | 4 | 8 |

14. Biomüxtəliflik indeksini hesablayın.
A) 0,54 B) 1,86 C) 1 D) 0, 7

15. Qruplaşmada hansı növ fərd baxımından daha zəngindir?

A) 
C) 
B) 
D) 

16. Torpaqda lobya toxumunun cücərməsi üçün hansı amillər lazımdır?

I. *su* II. *uyğun temperatur*
III. *karbon qazı* IV. *oksigen*

A) II, III və IV
B) yalnız II və IV
C) yalnız I və IV
D) I, II və IV

17. Həşəratların ayaqları yaşayış tərzi ilə əlaqədar olaraq müxtəlif formalarda olur. Hansı tipli ətrafa malik canlı ***göstərilməmişdir***?



A) Tullandırıcı ətraf
B) Qazıcı ətraf
C) Üzücü ətraf
D) Yüyürücü ətraf

18. Hansı biom biomüxtəliflik baxımından daha zəngindir?




19. İki fərqli bitkinin çiçəklərində reproduktiv üzvlərin yerləşmə vəziyyəti şəkildə göstərilmişdir.




Buna görə aşağıdakı fikirlərindən hansı doğru ***deyil***?

I. Hər iki bitki öz-özünə tozlana bilər.
II. 2-ci bitkidə tam çiçək quruluşuna malik çiçəklərə rast gəlinir.
III. Təbiətdə 1-ci bitki fərqli bir bitki növü ilə mayalana bilər.

A) II və III B) I və III C) yalnız I D) yalnız II

20. Canlılar arasında qarşılıqlı təsir onların bir-birinə fayda ("+") və ya zərər verməsinə ("-"), həmçinin neytral ("0") olmasına əsaslanır. Buna görə aşağıdakılardan hansı düzgün olar?

| | Mutualizm | | Parazitizm | | Kommensializm | |
|---|---|---|---|---|---|---|
| | I | II | Parazit | Sahib | III | IV |
| A) | + | - | + | 0 | - | + |
| B) | + | + | - | - | 0 | + |
| C) | + | + | + | - | + | 0 |
| D) | - | - | + | - | + | 0 |

21. Araşdırma zamanı hermafrodit çiçəyin (1-ci vəziyyət) dişi reproduktiv orqanları çıxarılır (2-ci vəziyyət).



1-ci vəziyyət 2-ci vəziyyət

Bu bitkinin yaşaması üçün lazımi ekoloji şərait təmin edilərsə, o, aşağıdakı quruluşlardan hansını əmələ gətirə ***bilməz***?

I. *Meyvə* II. *Toxum* III. *Tozcuq*

A) I və II
B) II və III
C) I və III
D) yalnız III

22. Çiçəkli bitkilərin cinsiyyətli çoxalması tədqiq edildikdə aşağıdakı xüsusiyyətlərə malik bitki növlərindən hansında <u>yalnız</u> çarpaz tozlanma müşahidə olunur?

I. *Bəzi növlərə aid fərdlər "tam çiçək" quruluşuna malikdir*
II. *Bəzi növlərə aid fərdlərin erkək və dişi çiçəkləri var*
III. *Bəzi növlərə aid fərdlərin bircinsli çiçəkləri müxtəlif bitkilər üzərində yerləşir*

A) yalnız I
B) I və III
C) yalnız II
D) yalnız III

Fənn müsabiqələri

23. Biomüxtəliflik ekvatordan qütblərə doğru getdikcə necə dəyişir?

A) 


C) 


B) 


D) 


24. Bitki kökünün uc hissəsinin sxeminə əsasən hansı fikir doğru ***deyil***?




A) X ixtisaslaşmış hüceyrələrdir.
B) Z hüceyrələri kökün uzununa böyüməsini təmin edir.
C) Y hüceyrələri törədicilik xüsusiyyətinə malikdir.
D) X, Y və Z canlı hüceyrələrdir.

25. Bədən temperaturunun ətraf mühit temperaturundan asılılıq qrafiki verilmiş canlılara aid ***deyil***:




A) Arxa ətraflarının barmaqları arasında üzmə pərdəsi olur.
B) Dərisində vəzilərin müxtəlifliyi çoxdur.
C) Dərisi qurudur və üzəri qərniləşmiş pulcuqlarla örtülür.
D) Bəzi nümayəndələrinin bədəni üstdən və altdan sümükləşmiş çanaq ilə əhatə olunmuşdur.

Fənn müsabiqələri